

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*


*XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR*

# LERİK

№ 13 (5572) ✹ 18 Oktyabr 2016-cı il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiyməti 40 qəpik


## ŞURANIN NÖVBƏTİ İCLASI KEÇİRİLDİ



Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasında rayon icra hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə Şuranın növbəti iclası keçirildi.

Rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov Şura iclasının gündəliyini elan etdi.

Sonra gündəlikdə olan "Rayonda əhaliyə göstərilən xidmət işinin (poçt, bank, rabitə, elektrik, qaz, su, yol, kommunal və istilik təminatı) vəziyyəti və onun daha da yaxşılaşdırılması üçün qarşıya qoyulan vəzifələrin icrası və payız-qış mövsümünə hazırlığı istiqamətində rayonda görülmüş işlər barədə" rayon icra hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikovun arayışı dinlənildi.

Gündəlikdə olan məsələ müzakirə edilərək müvafiq qərar qəbul edildi.

## İSRAİLİN SƏFİRİ LERİKƏ SƏFƏRƏ GƏLMİŞDİR





**İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav Lerik rayonunda rəsmi səfərdə olmuşdur.**

Səfər ərzində səfiri xanımı Gili Stav, missiya rəhbərinin müavini Amir Rom, səfirliyin İqtisadi və Ticarət Əlaqələri departamentinin rəhbəri Kəmalə Ramazanova müşayiət edirdi.

Rayonla tanışlıq məqsədi daşıyan səfər çərçivəsində İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav və Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov arasında görüş oldu. Çay süfrəsi arxasında davam edən görüşdə rayon icra hakimiyyəti başçısı qonağa rayonun qədim tarixi, coğrafi mövqeyi, adət-ənənəsi, mədəniyyəti haqqında məlumat verərək, aqrar bölmənin dirçəldilməsi üçün həyata keçirilən tədbirləri qeyd etdi, rayonun turizm potensialı və son illərdə görülmüş tikinti-quruculuq işlərini diqqətə çatdırdı.

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən cənab Dan Stav İsrail-Azərbaycan dövlətləri arasında ikitərəfli əməkdaşlığın getdikcə inkişaf etdiyini bildirdi, Azərbaycanda gedən sosial-iqtisadi inkişafın onda xoş təəssürat oyatdığını, paytaxtla yanaşı region şəhərlərində də inkişafın, müasirləşmənin getdiyini, Lerikin füsunkar təbiətinin insanda xoş əhval-ruhiyyə yaratdığını və burada olmasından məmnun qaldığını bildirdi.

Görüş zamanı səfir Dan Stava rayon sakinləri tərəfindən hazırlanmış xalq sənətkarlığı nümunələrindən ibarət hədiyyələr, rayon haqqında yazılmış kitablar və təbii Lerik balı təqdim edildi.

Səfər çərçivəsində qonaqlar "Uzunömürlülər" və rayon tarix diyarşünaslıq muzeyində eksponatlarla, rayonun bir sıra tarixi və mədəni abidələri ilə yaxından tanış olmuşdur. Həmçinin, qonağa rayonumuzun uzunömürlü sakinləri və zəngin tarixi keçmişi haqqında ətraflı məlumat verildi.

Sonra səfir rayonun Zuvand ərazisində təbiət mənzərələri, "Xəyyam-E" MMC-in arıçılıq təsərrüfatı ilə yaxından tanış oldu. "Xəyyam-E" MMC-in rəhbəri Elxan Nurullayev səfirə Zuvand yasaqlığında bitən müxtəlif növ dərman bitkiləri, arı məhsulları və təmiz dağ balı hədiyyə etdi. Daha sonra səfirlə çay süfrəsi arxasında söhbət aparıldı. Zuvand ərazisi, Diabar çökəkliyinin zəngin flora və faunası haqqında qonağa ətraflı məlumat verildi.


## "LERİK"Ə ABUNƏ OLUN

2017-ci ilin I yarımilliyi üçün "Lerik" qəzetinə abunə kampaniyası başlanmışdır.

6 aylıq abunə qiyməti 10 manatdır.

Əlavə məlumat almaq üçün "Mətbuatyayım"ının Lerik rayon şöbəsinə (027) 4-55-18, Lerik Post Filialına (027) 4-55-14, redaksiyamıza (027) 4-54-50 nömrəli telefonlara zəng edin.

*"Lerik" qəzeti*


## YENİ İL BAYRAMINDA AZƏRBAYCANDA 5 GÜN İSTİRAHƏT OLACAQ

**Dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi günü ilə əlaqədar qeyri-iş günüdür.**

Azərbaycanda Yeni il bayramında 5 gün qeyri-iş günü olacaq. 2016-cı il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi günü ilə əlaqədar qeyri-iş günüdür. 2017-ci ilin yanvarın 1-2-də Yeni il bayramı ilə əlaqədar qeyri-iş günləri olacaq. Əmək Məcəlləsinə əsasən, dekabrın 31-i həftənin şənbə, yanvarın 1-i isə bazar gününə təsadüf etdiyindən yanvarın 3-də və 4-də də iş olmayacaq. Yanvarın 5-i isə iş günü hesab edilir.

Beləliklə, Yeni il bayramında 5 gün iş olmayacaq.


## GƏLƏN SAYLARIMIZDA OXUYUN

* Vətən (esse)
* Ağac oyma ustası Famil Qafarov
* Hər yazılan kitabdırmı?
* Tikiləni dağıtmayın!
* Hamını düşündürən suallar
* İctmai ayaqyolunu kim tikməlidir?
* Bal arısı möcüzədir


## VƏTƏNDAŞLARIN QƏBULU KEÇİRİLDİ



**Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasının qəbul otağında rayon icra hakimiyyəti başçısı tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirildi.**

Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 27 nəfər vətəndaş qəbul olunaraq dinlənildi.

Barzavu kənd sakini, şəhid anası Gülnisə Tarverdiyeva yeni inşa edilmiş yaşayış evinə qaz xəttinin çəkilişinə, Lerik şəhər sakinləri Bəhlul Rəhimov yaşayış evi tikilməsindən ötrü torpaq sahəsinin sənədləşdirilməsinə, I qrup Böyük Vətən Müharibəsi əlili Salam Cabbarov evinə avtomobil yolunun çəkilməsinə, Rizvan Quliyev ödənişli əsaslarla təhsil alan oğlunun təhsil haqqının ödənilməsinə, Güləmirzə Məmmədov, Ağamirzə Məmmədov və Sevda Abdulova içməli su probleminin həllinə, ehtiyatda olan hərbi qulluqçu Alim Məcidov kirayə haqqının ödənilməsinə, Blaband kənd sakini Suanverdi Həsənov və Lerik şəhər sakini Gülxanım Muradova maddi yardım istəməsi barədə, Soru kənd sakini Əzizxan Təhməzov qəzalı vəziyyətdə olan evinin bərpasını xahiş etdilər.

Qəbulda olan vətəndaşlar tərəfindən qaldırılan problemlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi, müraciətlərinin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

## TƏHSİL İŞÇİLƏRİ MÜZAKİRƏ ETDİLƏR

### *20152016-cı tədris ilinin yekunlarına və növbəti tədris ilində qarşıda duran vəzifələrə həsr olunmuş konfransı keçirildi*



Rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Lerik Rayon Təhsil Şöbəsinin müdiri Balaşirin Nəsirov 2015/2016-cı tədris ilinin yekunlarına dair hesabat məruzəsi ilə çıxış edərək bildirdi ki, ötən tədris ilində rayonun 106 ümumi təhsil müəssisəsində 7505 nəfər şagird təhsil almış, onların təlim-tərbiyəsi ilə 1263 müəllim məşğul olmuşdur. Diqqətə çatdırdı ki, cari ildə rayonun ümumi təhsil müəssisələri üzrə 459 nəfər 11-ci sinfi, 639 nəfər 9-cu sinfi bitirmişdir. Rayon üzrə məzunlardan bu il 118 nəfər ali təhsil müəssisələrinə qəbul olunmuşdur. Onların 13 nəfəri 500-dən yuxarı, 1 nəfəri 670 bal toplamışdır. Rayon üzrə 98 nəfər ümumi orta və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olunmuşdur. Qeyd olundu ki, ötən tədris ilində rayon məktəbliləri müxtəlif respublika müsabiqələrində, fənn olimpiadalarında, idman yarışlarında uğurla iştirak edərək bir sıra nailiyyətlər qazanmışdır.

Hesabat məruzəsində həmçinin təhsil müəssisələrində növbəti tədris ilinə hazırlıqla bağlı görülən işlərdən bəhs edildi, qarşıda duran vəzifələr diqqətə çatdırıldı.

Məruzə ətrafında Züvüc kənd tam orta məktəbinin direktoru Sahil Ağayev, Lerik şəhər inteqrasiya təlimli internat tipli gimnaziyanın direktor müavini Arzuman Zeynalov, Lerik Rayon İcra Hakimiyyəti başçısının Piran kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Rizvan Əsədov, Lerik Rayon İcra Hakimiyyəti başçısının Şingədulan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Nəbi Mirzəyev ötən tədris ilində görülmüş işlər və qarşıda duran vəzifələr barədə fikirlərini bölüşdülər, rayonun təhsil işçilərinə yeni dərs ilində daha yüksək nailiyyətlər arzuladılar.

Lerik şəhər 3 saylı tam orta məktəbinin 10-cu sinif şagirdi Rusif Nəzərli, həmin məktəbin məzunu İlahə Rəcəbzadə çıxış edərək qazandıqları uğurlarda təhsil aldığı məktəbin və onun kollektivinin rolunun böyük olduğunu vurğulayaraq buna görə müəllimlərinə təşəkkürlərini bildirdilər, ali məktəbdə təhsil aldıqları dövrdə rayonumuzun adını daim ucaldacaqlarını qeyd etdilər.

Konfransda Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov təhsil işçilərini yeni tədris ilinin başlaması münasibəti ilə təbrik etdi, rayonda təhsilalanlar və təhsilverənlər üçün yaradılmış şəraitdən söz açdı, bir sıra yeni məktəb binalarının tikilərək müasir inventar və avadanlıqlarla təchiz olunduğunu bildirdi. Qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında təhsilə göstərilən qayğı təhsil işçiləri tərəfindən daha həssaslıqla qiymətləndirilməli və onlara göstərilən etimad layiqincə doğruldulmalıdır.

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun şöbə müdiri Pirəli Əliyev konfransda çıxış edərək təhsil sahəsində aparılan islahatlardan söz açdı, məruzə və çıxışlarda səsləndirilən təkliflərə münasibətini bildirərək qarşıda duran vəzifələrlə bağlı tövsiyələrini verdi.

Konfransın qətnaməsi və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

Sonda tədrisdə fərqlənən bir qrup təhsil işçisinə rayon icra hakimiyyətinin və rayon təhsil şöbəsinin Fəxri fərmanları, ali təhsil müəssisələrinə builki qəbul imtahanlarında yüksək nəticələr göstərmiş məzunlara qiymətli hədiyyələr və mükafatlar təqdim olundu.

Konfrans işini bölmə iclasları ilə davam etdirdi.

# XALQ REFERENDUMA "HƏ" DEDİ!

## İlham Əliyev: "Keçirilən referendum bir daha bizim siyasətimizə xalq tərəfindən böyük etimadın göstəricisidir"

## "Bu etimad bizə güc verir. Bu etimad olmasaydı, ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə müdafiə etmək çətin olardı"









**26 sentyabr 2016-cı il. Azərbaycanın tarixi salnaməsində xüsusi yeri və əhəmiyyəti olan həmin gün bütün ölkə əhalisi müstəqilliyimizin əbədiliyi, inkişafımızın davamlı olması naminə birlik və həmrəylik nümayiş etdirərək yenə də seçki məntəqələrinə üz tutdular. Hamı daha qüdrətli Azərbaycan naminə vətəndaşlıq borcunu yerinə yetirir, seçici hüquqlarından istifadə edərək ümumxalq səsverməsində iştirak edirdi. Seçkilər məntəqələrdə əvvəlcədən tanış olduqları referendum layihəsi üzrə bülletenlərdə qeyd olunmuş dəyişiklik və əlavələrə münasibətini bildirirdi.**

Prezident İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq 26 sentyabrda keçirilən "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktında edilən dəyişiklik və əlavələr sosialyönümlü olmaqla ölkənin iqtisadi inkişafının daha da sürətlənməsinə, hüquqi sistemin təkmilləşdirilməsinə, demokratikləşmə proseslərinin dərinləşməsinə təkan verəcək siyasi islahatlara, dəyişiklik və əlavələrə xüsusi diqqət yetirilib.

Ölkəmizin hər yerində olduğu kimi, Lerik rayonunda da seçici fəallığı yüksək olub. Onlar yaxşı bilirdilər ki, dövlətin ali məqsədi insan hüquq və mənafelərini qorumaqdır. 78 saylı Lerik seçki dairəsi üzrə 108 məntəqədə 31826 seçicidən 21546 nəfəri ümumxalq səsverməsində iştirak edib. Rayonda səsvermə zamanı qanun pozuntusu qeydə alınmayıb.

### Daha güclü Azərbaycan uğrunda

Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə bağlı 26 sentyabr 2016-cı il tarixində keçirilən ümumxalq səsverməsi (referendum) 1 saylı Lerik seçki məntəqəsində böyük uğurla keçirilib. Referendum günü səhər saat 8:00-dan etibarən seçicilər yüksək əhval-ruhiyyə ilə məntəyə gəliblər və sərbəst şəkildə referenduma çıxarılan əlavə və dəyişikliklərə öz münasibətlərini bildiriblər.

Məntəqə seçki komissiyasının sədri Bəylər Salmanov məlumat verərək deyir:

- Məntəqəmizdə seçicilərin normal iştirakı üçün bütün şərait var və məntəqə lazımi texniki avadanlıqlarla təchiz olunub. Siyahıda 1257 nəfər seçicinin səs verməsi nəzərdə tutulub. Kabinetlər, müşahidəçilər "exit-pol" veb-kamera, seçki komissiyasının üzvləri - hər şey səsvermənin qaydasında həyata keçirilməsinə xidmət edir.

Seçici Qəhrəman Əliyev deyir:

- Ümumxalq səsverməsi daha güclü Azərbaycan uğrunda atılmış mühüm addımdır. Mən inanıram ki, Konstitusiyaya təklif olunan bu dəyişikliklər Azərbaycanın daha da inkişafına xidmət edəcəkdir.

Seçicilərdən Musa Bədəlov, Ədail Məmmədov, İsa Sadıqov, Cəbrayıl Fərəcov, Etibar Yusubov və başqaları da bu fikirdədirlər, öz səsvermə hüquqlarından sərbəst şəkildə istifadə edirlər.

Məntəqəyə gələn seçicilər Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərə öz iradələrinə uyğun olaraq münasibət bildirirlər.

### YÜKSƏK FƏALLIQ ŞƏRAİTİNDƏ

Lerik şəhər 2 saylı seçki məntəqəsində Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə əlaqədar keçirilən referendumda seçicilər yüksək fəallıq nümayiş etdiriblər. Məntəqə üzrə 1084 seçicinin qeydiyyatda olduğunu deyən məntəqə seçki komissiyasının sədri Akif İmanov əlavə edir ki, burada səsverməyə ciddi hazırlıq görülüb, seçici siyahılar dəqiqləşdirilib, seçicilər arasında müvafiq maarifləndirmə aparılıb. Görülən tədbirlər öz bəhrəsini verib, heç bir qanunazidd hərəkət qeydə alınmayıb.

Seçicilərdən Nəciməli Əliyev, Zabit Hacıyev, Xanağa Rüstəmov, Hüseynbaba Mirzəyev, Qızılgül Əsgərova, Səlmiyyə Paşayeva, Aygün Rüstəmova, Həşim Nəsirov ümumxalq səsverməsinin şəffaf və demokratik şəraitdə keçirildiyini, Referendum Aktında nəzərdə tutulan əlavə və dəyişikliklərlə bağlı ətraflı məlumata malik olduqlarını, ölkəmizi daha yüksək inkişafı və xalqımızın firavanlığı naminə dəyişiklikləri dəstəklədiklərini bəyan etdilər.

Müşahidəçilərdən aldığımız məlumata görə, səsvermənin gedişi zamanı qanun pozuntuları qeydə alınmayıb, seçicilər səsvermədə aktiv iştirak ediblər. Seçicilərin böyük əksəriyyəti referenduma "Hə" dedi.

### ŞİNGƏDULANDA SEÇİCİLƏR REFERENDUM AKTINA MÜTƏŞƏKKİLLİKLƏ "HƏ" DEDİLƏR

Səhər erkən rayonumuzun iri yaşayış məntəqələrindən biri olan Şingədulan kəndində sakinlər iki-bir, üç-bir 20 saylı seçki məntəqəsinə doğru axışırdılar. Onlar Referendum Aktında dəyişikliklərə heç bir göstəriş, maneə olmadan ölkə Konstitusiyasının 29 maddəsinə əlavə və dəyişikliklərə öz münasibətini bildirdilər, "Hə" dedilər.

Yaşı 80-ni ötən Heybət Həsənov seçki bülletenini qutuya salaraq dedi:

- Mən də digər seçicilər kimi Konstitusiyaya təklif olunan əlavə və dəyişiklikləri dəstəkləyirəm. Azərbaycan dövlətinin daha da firavan gələcəyini istəyiriksə, bu gün səsverməyə çıxarılan məsələlərə "Hə" deməliyik. Referendum hər bir xalqın gələcəyini təyin etmək üçün verdiyi qərardır. İnanırıq ki, xalqımız dövlətimizi daha böyük uğurlara aparacaq, dəyişikliklərə "Hə" deyəcək.

Veb-kamera quraşdırılmış məntəqədə seçicilərin böyük əksəriyyəti səsvermədə iştirak etdi, seçki müddətində heç bir narahatçılığa yol verilmədi.

### ÖZ İRADƏLƏRİNİ SƏRBƏST ŞƏKİLDƏ İFADƏ ETDİLƏR

Ölkə Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi (referendum) yüksək fəallıq şəraitində keçirilib. Səhər saat 8:00-dan etibarən 107 saaylı Nuravud seçki məntəqəsinə gələrək referenduma çıxarılan əlavə və dəyişikliklərə öz münasbətini bildirən seçicilər fəallıqları ilə fərqləniblər. Artıq günorta saatlarında seçicilərin mühüm əksəriyyəti referendumda iştirak ediblər. Seçki məntəqəsində seçicilərin azad, şəffaf şəkildə səs verməsi üçün yaxşı şərait yaradılmışdır. Seçki məntəqəsinin sədri Zakir Babayev deyir ki, Azərbaycanı daha güclü görmək istəyən seçicilərin aktivliyi sevindiricidir. Onlar öz vətəndaşlıq borclarını yerinə yetirərək Konstitusiya islahatlarının ölkəmizin inkişafında mühüm rol oynadığını birmənalı şəkildə nümayiş etdiriblər.

Seçicilərdən Xosaxan Şahsuvarov, Camal Əzizov, Əhməd Əzizov, Telli Süleymanova, gənclərdən Elvin Babazadə, Rusif Tarverdizadə, Azər Rəşidov səsvermə prosesində aktivlik nümayiş etdiriblər.

### ŞƏFFAF ŞƏRAİTDƏ

88 saylı Veri seçki məntəqəsində seçkiqabağı tədbirlər qanunauyğun şəkildə həyata keçirildiyi üçün burada heç bir qanun pozuntusu müşahidə edilməyib.

Bu məntəqədə 254 nəfər səsvermədə iştirak edib ki, bu da seçicilərin 78 faizini təşkil edir. Məntəqənin sədri Fəxrəddin Zeynalov deyir ki, seçicilik Azərbaycanın gələcək inkişafı naminə Konstitusiyaya təklif edilən əlavə və dəyişiklikləri dəstəkləyiblər, böyük siyasi fəallıq, vətəndaşlıq mövqeyi nümayiş etdiriblər.

Verili seçicilər deyiblər ki, uğurlu gələcək naminə bu referendumda iştirak etmək vacibdir. Buna görə də onlar şəffaf və demokratik şəraitdə keçən seçkidə daha fəal iştirak ediblər.

---

### DƏYİŞDİ İLHAM

Halal zəhmətindən ölkə güc alır,
Vətənə xidməti bir amal sanır.
Hər bir vətəndaşa özü nur saçır,
Sanki kainatdır, günəşdir İlham!

Üçrəngli bayrağı dalğalandıran,
Şəhərlər yaradıb, körpülər quran,
Onunla fəxr edir mərd Azərbaycan,
Çətin suallara cavabdır İlham!

Ulu öndərimin yetirməsidir,
Haqqın, ədalətin nişanəsidir.
Qələbə səsidir, zəfər səsidir,
Millətə, xalqına dayaqdır İlham!

On ildə bir əsrin işini gördü,
Halal zəhmətilə bəzədi yurdu.
Ən çətin anlarda o öndə durdu,
Canlı kainatdır, günəşdir İlham!

Vətəndə yaratdı məhsul bolluğu,
Aradan götürdü o yoxsulluğu.
İnsanın insanla ölməz dostluğu,
Gərgin zəhmətilə yaratdı İlham!

Ölkədə yaratdı qüdrətli ordu,
Düşməndən qoruyur bu doğma yurdu.
Cəbhədə alınmaz səngərlər qurdu,
Yurdunu qalaya döndərdi İlham!

Ordu cavab verdi hər bir tələbə,
Düşmənə endirdi o ağır zərbə.
Cəbhədə qazandı uğur, qələbə,
Qüvvələr nisbəti dəyişdi, İlham!

Üçrəngli bayrağım Marsda ucalır,
Düşmənin qəlbinə zəlzələ salır.
Peykimiz orbitdən məlumat alır,
On ili yüz ilə dəyişdi İlham!

### AZƏRBAYCANIM

Çıxmısan illərin sərt sınağından,
Təbəssüm tökülür yanaqlarından.
Əlləşdin, çalışdın yarandığından,
Dünyaya nur saçan Azərbaycanım.

Hər qarış torpağın canlanır bu gün,
Pozulmaz tarixdir, yarandığın gün.
Şən zəfər bayrağın parlayır bu gün,
Daim üzün ağdır Azərbaycanım.

Sən bütün cahana oldun nümunə,
Zülmətdən çıxmısan işıqlı günə.
Böyüyür şöhrətin hey gündən-günə,
Aləmə nur saçan Azərbaycanım.

Bərkidin illərin qanadlarında,
Azad həyat gülür torpaqlarında.
Çisəklər nur səpir şiş dağlarında,
Danışan kitabsan Azərbaycanım.

Tarixin böyükdür, bilinmir yaşın,
Gücünə inamdır aprel savaşın.
Tükənməz sərvətdir, torpağın, daşın,
Dillərdə dastansan Azərbaycanım.

Çıxart qəm libasın, haqqın var, öyün,
Sevinc tarixidir, yarandığın gün.
Dünya hesablaşır səninlə bu gün,
Odun şölə saçır Azərbaycanım.

### QƏLƏBƏ SƏNİNDİR

Ümidim sənədir, Vətən səsləyir,
Sənin hünərinə ümid bəsləyir.
Düşmən qabağında qaçır, əsnəyir,
Sən məğrur bayrağı sanc Qarabağda.

Bayrağım ucalır Lələtəpədə,
Zəhmətin nur saçır kənddə, şəhərdə.
Səbrimiz tükənib, çatıb son həddə,
Üçrəngli bayrağı sanc Qarabağda.

Qələbə yaxındır, deyil uzaqda,
Göz yaşı sel olub qalıb yanaqda.
Tanklar nərildəyir doğma torpaqda,
Qələbə sənindir, igid əsgərim!

Dağ qədər ağırdır mənim kədərim,
Düşmən tapdağıdır kəndim, şəhərim.
Artsın uğurların, artsın zəfərin,
Ümidim sənədir, igid əsgərim.

Vətən haray çəkir, sizi səsləyir,
Sənin hünərinə ümid bəsləyir.
İşğalda torpaqlar sizi səsləyir,
Qələbə sənindir, igid əsgərim!

Artıq uğurunu daim, anbaan,
Kimliyin eylədin düşmənə bəyan.
Səninlə fəxr edir mərd Azərbaycan,
Qələbə sənindir, igid əsgərim!

### SEVİNCLƏ YAŞAYAQ

Ürəkdən bağlanaq doğma torpağa,
Böhranı ölkədən qovaq uzağa.
Ehtiyac duymayaq taxıl, ərzağa,
Qayğısız, sevinclə yaşayaq, dostlar.

Torpaq xəzinədir hər zaman bizə,
Bol nemət yetirir o süfrəmizə.
Torpaqdan incimək yaraşmır bizə,
Torpağı becərək, yaşayaq, dostlar

Daim dayaq olaq bir-birimizə,
Kimliyi göstərək rəqibimizə.
Tənbəllik yaraşmır heç zaman bizə,
Torpaqdan güc alıb yaşayaq, dostlar.

Gəlin fikrimizdən biz yayınmayaq,
Sözümüz üstündə möhkəm dayanaq.
Vətənə xidməti müqəddəs sanaq,
Vətəndə yaşayıb, vətənçin yanaq.

Dilə gətirməyək ərzaq korluğu,
Çalışaq, yox edək biz yoxsulluğu.
Ölkədə yaradaq məhsul bolluğu,
Firavan, sevinclə yaşayaq, dostlar.



*Muradəli Hüseynov, Hamarat kəndi*

# SABAHA İNAMLA



Ümummilli lider Heydər Əliyev istər hakimiyyətdə olduğu ilk illərdə, istərsə də xalqın təkidi və tələbi ilə müstəqil Azərbaycanın rəhbərliyinə qayıtdığı dövrdə həmişə təhsilə, elmə, mədəniyyətə, incəsənətə böyük diqqət və qayğı göstərmişdir. Əgər böyük öndərin Azərbaycan təhsilinin inkişafına xüsusi diqqət və qayğısı, sərəncam və fərmanları, göstərişləri olmasaydı, ölkəmizin elm və zəka potensialı indiki səviyyəyə gəlib çıxmazdı, dünya miqyasında tanınmazdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məktəb tikintisinə, təhsilin müasir tələblər səviyyəsində qurulmasına, gəncliyin qarşısında duran mühüm məsələlərə xüsusi önəm verməsi öz müsbət nəticələrini göstərməkdədir. Ölkə başçısının 2015-ci ildə Lerik rayonuna səfəri, növbəti ildə yenidən rayonumuza gəlməsi, əsaslı təmir olunmuş və yeni texniki-təlim vasitələri ilə tam təchiz olunmuş şəhid V.İbrahimov adına Lerik şəhər tam orta internat məktəbinin açılış mərasimdə iştirak etməsi rayon ictimaiyyətinin, eləcə də pedaqoji kollektivimizin yaddaşında silinməz izlər buraxıb. Məhz o vaxtlar biz təlim və tərbiyənin keyfiyyətini yüksəltməyi, gəncləri elmi biliklərin əsaslarını aşılamağı, Vətənin müdafiəsinə həmişə hazır olan vətənpərvərlər yetişdirməyi qarşımıza məqsəd qoymuşduq. Çəkilən zəhmət, təhsilə müasir tələblər səviyyəsində yanaşmaq öz bəhrəsini vermişdir. Əgər 2015-ci ildə məktəbimizi bitirən 6 nəfər məzun ali məktəblərə daxil olmuşdusa, 2016-cı il buraxılışından 11 nəfər institutlara daxil olub. Həmin məzunların ikisi 500 baldan çox nəticəyə nail olub. Biz inanırıq ki, tələbə adını qazanmış məktəbimizin məzunları tələbəlik illərini uğurla başa vuracaq, yeni iş yerlərində yenilikçi kimi fəaliyyət göstərəcəklər.

Yeni dərs ilindən başlayaraq məktəbimizin adı dəyişilmiş, yeni iş prinsipləri tətbiq olunmağa başlanmışdır. Əminik ki, hər bir yenilik pedaqoji kollektivimizə nailiyyətlər qazandıracaq, ili daha yüksək nəticələrlə yekunlaşdıracağıq.

***Asəf Bədəlov,***
***V.İbrahimov adına Lerik şəhər inteqrasiya təlimi, internat tipli gimnaziyanın direktoru***

# DÜNYA STANDARTLARINA UYĞUN




"Azərişıq" ASC Cənub Regional Enerji Təchizatı və Satışı İdarəsi Lerik şəhər sakinlərini mühüm bir yeniliklə sevindirmək ərəfəsindədir. İdarənin tikinti və quraşdırıcıları Lerik Elektrik Şəbəkəsinin 35-10 kilovoltluq yarımstansiyasını müasir standarta uyğun yenidən qururlar. İlk növbədə, yarımstansiyanın avadanlıqlarını qapalı şəkildə yerləşdirmək üçün müasir estetik görkəmə malik bina tikilmişdir. Binanı "Azərişıq" ASC-nin inşaatçılar briqadası inşa edir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Lerikin tarixində bu yenilik bir çox cəhətləri ilə diqqəti cəlb edir: yeni qapalı yarımstansiya enerji təminatını daha da yaxşılaşdıracaq, avadanlıqları yanğın təhlükəsindən qoruyacaq, avadanlıqların vaxtından qabaq sıradan çıxmasının qarşısını alır.

# KÜÇƏLƏRİN GÖRKƏMİ DƏYİŞİR





**Danılmaz bir həqiqətdir ki, Lerik şəhəri ilbəil yox, günbəgün gözəlləşir, görkəmini dəyişir. Lerik şəhərində su-kanalizasiya sistemi qurulduğundan küçələrin asfalt örtüyü qismən də olsa dağıdılmış, bəzi yerlər payızda, qışda keçilməz olmuşdu. Bu da şəhər sakinlərinin haqlı narazılığına səbəb kimi öz müsbət həllini gözləyirdi.**

Biz H.Şıxəliyev küçəsinə asfalt örtük döşəyələrlə görüşməyə gedəndə, daha doğrusu, onları fotoaparatın lentinə köçürmək istəyəndə işin qızğın çağı idi. Tozlu-torpaqlı, kələ-kötür yol hamarlanmış, gediş hissəsinə daş və çınqıl döşənmiş, yolda ağır "bomac"lar öz işini gördükdən sonra iki tonnajlı yükünü özüboşaldan iri tonnajlı maşınlar isti və keyfiyyətli asfaltı yayan maşının bunkerinə boşaldırdılar. Bundan sonra isə fəhlələr və kipləşdirici maşınlar işə başlayırdılar, təzə yol göz oxşayır, şəhər sakinlərinin sevincinə səbəb olurdu.

Yol tikintisi ilə "Azavtoyol" Lerik filialı məşğul olur. Filialın rəhbəri Ağarəhim Muxtarzadə Lerikdə yol tikintisindən danışaraq deyir:

- Dövlətimizin başçısı İlham Əliyev regionlarda yol infrastrukturunu yaxşılaşdırmaq üçün bir sıra önəmli sərəncamlar vermişdir. Bu yol tikintisinə bizim diqqətimizi artırıb. Lerik şəhərində V.Müslümov, A.Nuriyev, H.Aslanov, C.Şahiyev küçələrini asfaltlaşdırmışıq. Gördüyünüz kimi H.Şıxəliyev küçəsində işləyirik. Yol pis vəziyyətdə idi. Lazım olan işləri həyata keçirtdik. İşin keyfiyyətini diqqət mərkəzində saxlamışıq. E.Qarayev küçəsini də təmir edirik. Görəcəyimiz işlər çoxdur.

Qəzet çapa gedərkən yol ustaları E.Qarayev küçəsinin təmiri ilə məşğul idilər. Ümid edirik ki, bu küçə də tezliklə qaydaya salınacaq, yol rahatlığı əhalini razı salacaqdır.

***Zəfər Əliyev***

# UÇMUŞ YOLLAR QAYDAYA SALINIR



**Lerik-Lənkəran yolunun 34-cü və 27-ci kilometrlərindəki sürüşməyə məruz qalmış gediş hissələri tikilmişdir. Həmin sahələr təhlükə yaradır, sürücülərin təşvişinə səbəb olurdu.**

Tikinti ilə 52 nömrəli yol istismarı MMC-nin yol ustaları və mexanizatorlar məşğul olmuşlar. 34-cü kilometrdə 13 metr uçulan yol tikilib və 5 metr yol təmir olunub. 27-ci kilometrdə isə 35 metr uçquna məruz qalmış yolun gediş hissəsi qaydaya salınıb. İstinad divarlarının tikintisində, yola daş və çınqıldaşınmasında, yolun hamarlanmasında fəhlələrdən Şakir Ramazanov, Bulud Mehdiyev, Samir Orucov, ekskavatorçu Şefiəli Nəbiyev, qreyderçi Eldar Ağayev, sürücü Cavanşir Həndəmov, Natiq Həndənov fərqlənmiş, tapşırıqları texnoloji qaydada yerinə yetirmişlər.

***"Lerik"***

# MƏCBURİ PAYA VƏRƏSƏLİK HÜQUQU HAQQINDA ŞƏHADƏTNAMƏLƏRİN VERİLMƏSİ

**HÜQUQŞUNASIN MƏSLƏHƏTİ**

Qanun üzrə vərəsələr dairəsində elə vərəsələr var ki, miras qoyanın etdiyi vəsiyyətnamənin məzmunundan asılı olmayaraq, onlara vərəsəlikdə müəyyən pay verilir. Mülki qanunvericilkdə, bu, məcburi pay adlandırılmışdır; 01 sentyabr 2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinə görə, vəsiyyət edənin uşaqlarının valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı (miras qoyanın vəsiyyət etmədiyi təqdirdə) onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir.

Mülki Məcəllənin 1193-cü maddəsi imperativ normadır: nə vəsiyyət edən, nə də vəzifəli şəxs onu dəyişdirə bilməz. Yeni Mülki Məcəllənin 7.1-ci maddəsinə görə, Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsində nəzərdə tutulanlar istisna olmaqla, mülki qanunvericilik müddəalarının geriyə qüvvəsi yoxdur və onlar qüvvəyə mindikdən sonra əmələ gəlmiş münasibətlərə tətbiq edilir. Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsində göstərilir ki, fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquqi məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ-hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Lakin vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsi məsələlərində bu qayda tətbiq edilə bilməz, ona görə ki, normativ-hüquqi aktların qüvvəsinin geriyə şamil edilməsi bir vərəsənin vəziyyətini yaxşılaşdırdıqda, digər vərəsənin vəziyyətini pisləşdirir. Buradan belə bir nəticəyə gəlmək olar ki, miras qoyan 2000-ci ilin sentyabr ayının 1-nə kimi öldükdə və ya ölmüş elan edildikdə, notariuslar vərəsəlik hüququ haqqında şəhadətnaməni köhnə Mülki Məcəllə əsasında, 2000-ci il sentyabr ayının 1-dən sonra öldükdə və ya ölmüş elan edildikdə, yeni Mülki Məcəllə əsasında verilməlidir.

Köhnə MM ilə müqayisədə yeni MM-də mirasdan məcburi pay almalı olan vərəsələrin dairəsi və məcburi payın miqdarı fərqlənir. Belə ki, əvvəlki MM-nin 538-ci maddəsində deyilirdi ki, miras qoyanın yetkinlik yaşına çatmamış və ya əmək qabiliyyəti olmayan uşaqları (o cümlədən övladlığa götürülənlər), habelə əmək qabiliyyəti olmayan əri (arvadı), valideynləri (övladlığa götürənlər) və ya ölənin himayəsində olanlar, vəsiyyətnamənin məzmunundan asılı olmayaraq, onların hər birinə qanun üzrə vərəsəlik zamanı çatası payın (məcburi payın) üçdə iki hissəsindən az olmayan hissəni alırlar.

Yeni Mülkü Məcəllənin 1202-ci maddəsinə əsasən, məcburi pay almaq hüququ olan vərəsə onu qəbul etməkdən imtina edə bilər, lakin bu imtina digər vərəsələrin məcburi payının artmasına səbəb olmur. Onun payı vəsiyyət üzrə vərəsələrə keçir.

Məcburi payın qəbul edilməsi və ya ondan imtina olunması mirasın qəbul edilməsi və ya ondan imtina olunması üçün müəyyənləşdirilmiş vaxt ərzində həyata keçirilməlidir.

***Mustafa Mustafayev,***
***Lerik Rayon Dövlət notariat kontorunnu dövtət notariusu***

*Nöqteyi-nəzər*

# BƏXTİYARLIQ SORAĞINDAYAM...



**Hər dəfə ordumuz şəhid verəndə ürəyim sızıldayır, düşmənə qarşı nifrət və qəzəbim artır. Axı, əli xına görməyən, bu işıqlı həyatdan arzu-kam almayan, ata-ananın qəm yükünə çevrilən şəhid oğullar bir elin dirəyi ola bilərdi...**

Təbii ki, Qarabağın qaynar nöqtələrində erməni təcavüzünün qurbanına, lakin el-obanın qüruruna çevrilən şəhidlər aylar, illər keçsə də, unudulmur, adları əbədiləşir, tarixə yazılır.

Son aylarda şəhid olmuş Ruslan Ağayev, Natiq Kərimli, Vüsal Əliyev kimi qəhrəman oğulları ana torpaq öz ağuşuna aldı, onlar göstərdilər ki, vətən yolunda vuruşmağa, hünər göstərməyə Milli Ordunun əsgərləri həmişə hazırdır. Onlardan biri də mənim sevimli qardaşım Elşən Qasımov idi. O, 1993-cü ildə Füzuli bölgəsində erməni qəsbkarlarına qarşı vuruşmada şəhid oldu. Öz canını yurd, vətən uğrunda qurban verdi ki, Vətən yaşasın, yağı düşmən öz əməlindən utanıb yerə girsin!

Mən orta məktəbi Lerik qəsəbə orta məktəbində (indiki 1 saylı Lerik şəhər texniki fənlər təmayüllü lisey) təhsilimi başa vurdum və 2001-ci ildə Milli Ordu sıralarında xidmət etməyə başladım. 2009-cu ildən Lerik rayon polis şöbəsində – qeydiyyat və şəxsiyyət qrupunda baş operator işləyirəm. Vəzifə borcumu yerinə yetirməklə yanaşı, polis şöbəsinin idman şərəfini qorumağa çalışıram. Əvvəllər "Qartal" komandasında oynayırdım. Polis komandasında oynayarkən, 2-ci yeri tutarkən fərqlənmişəm. Futbolda qazandığım uğurlara görə diplomlarla və fəxri fərmanlarla təltif olunmuşam. Lerik rayon polis şöbəsinin rəhbərliyi tərəfindən mükafatlara layiq görülmüşəm. Azərbaycanın beynəlxalq arenada idman sahəsində qazandığı nailiyyətlər bizi sevindirir.

Yenidən yazının əvvəlindəki fikirlərimə qayıtmaq istəyirəm. İstəyim budur ki, tezliklə Qarabağ azad olunsun, əmin-amanlıq şəraitində yaşayaq. İnanırıq ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yeritdiyi xarici siyasət tezliklə öz nəticəsini göstərəcək, işğal olunmuş ərazilərimiz düşməndən azad ediləcək.

***Bəxtiyar Qasımov,***
***Lerik RPŞ-nin qeydiyyat və şəxsiyyət qrupunun baş operatoru***

# LERİK RAYONUNUN İLK TİBB İŞÇİSİ





**Məşədi Rəvvaq Kərbəlayi Ramazan oğlu 1900-cü ildə Lənkəran qəzasının Lerik kəndində dünyaya göz açmışdır. İlk təhsilini molla Qafardan almışdır. Atası Kərbəlayi Ramazan oğlu Rəvvaqı uşaq yaşlarından Məşhədə İmam Rzanın ziyarətinə aparmışdır. Mollaxanada təhsilini başa vuran, Qurani-Kərimi mükəmməl öyrənən Məşədi Rəvvaq 1910-cu ildə rus-tatar məktəbini və riyaziyyatdan dərs alır. 1914-cü ildə Birinci Dünya müharibəsi başlandığına görə rus-tatar məktəbi bağlanır.**



Bu məktəbdə Rəvvaq rus dilini mükəmməl öyrənmişdi. O, eyni zamanda, tibb elminə də böyük maraq göstərir, xalq təbabətini mənimsəmişdi. Xüsusilə də "dismurgiyə", yəni sarğı qoyuluşunun müxtəlif formalarını bacarır, praktikada tətbiq edirdi. Rəvvaq sınıq bağlamağı, çıxıqları yerinə salmaq texnikasını öyrənmiş, sonralar sınıqçı Rəvvaq adı ilə elobada məşhurlaşmışdır.

1920-ci ildə Zuvand mahalının Lerik kəndi rus qoşunları tərəfindən tam yandırılaraq talan edilmişdi. Rus dilini bilməyən əhali əvvəlcə meşəyə, sonra isə Mastail kəndinə qaçmışdı. Əhalinin çoxu qəbiristanlıqda gizlənmişdi. Rus qoşunlarında xidmət edənlər rus dilini bilməyən əhalini təhqir edir və incidirdilər. Belə bir şəraitdə Rəvvaq Ramazan oğlu tərcüməçi kimi fəaliyyət göstərərək əhalini incitməkdən mühafizə etməyə çalışmışdı. Məşədi Rəvvaqın rus dilini mükəmməl bilmişdi. Xəsarət almış rus əsgərlərinə göstərdiyi yardım qabiliyyətini nəzərə alan ordu hissəsinin başçısı Rəvvaqı öz yanında saxlamağa məcbur edir.

Bir müddətdən sonra lerikli Ağalının evində tibb məntəqəsi açılmış və həmin məntəqəyə Rəvvaq tibb işçisi təyin olunmuşdur. O, burada rus əsgərlərinə və yerli əhaliyə yardım göstərmişdi.

Rəvvaqın rus dilinin mükəmməl bilməsini və rus əsgərlərinə göstərdiyi xidməti nəzərə alaraq onu firqə üzvlüyünə, yəni kommunist partiyası sıralarına qəbul edirlər. Fərgə üzvlüyünə qəbul edildikdən sonra ona müxtəlif ictimai işlər aparmağı tapşırırlar. Rəvvaq Siyovda, Çayrudda, Kirəvudda, Nucu-Lərmərudda, Conuda kənd sovetinin sədri işləmişdir. Sonralar ayrı-ayrı kəndlərdə kolxoz sədri, rayon İstehlak Cəmiyyətinin sədri, rayon İcraiyyə Komitəsinin katibi, Kolxozlararası Tikinti İdarəsinin təsərrüfat şöbəsinin müdiri, Lerik rayonu üzrə təsərrüfat müvəkkili, mal-qara tədarükü kontorunun müdiri işləmişdir. O, 1960-cı ildə Lerik internat məktəbin təsərrüfat şöbəsinin müdiri işləmiş və təqaüdə çıxmışdır.

Rəvvaqın tibb elminə böyük marağı olduğu üçün ailədə tibb elminin üstünlüyünü göstərməyə çalışırdı. Buna görə də onun ailəsində həkimlərin sayı çoxdur. Oğlu Zeynalabdin atasının qayğısı və xeyir-duası ilə Tibb İnstitutunu bitirdi və 1967-ci ildən Lerik rayon Mərkəzi Xəstəxanasında işlədi. 1969-cu ildən 2013-cü ilə qədər Lerik rayon Mərkəzi Xəstəxananın Cərrahiyyə Şöbənin müdiri vəzifəsində çalışdı. Rəvvaqın oğlu Akif rayon uşaq xəstəxanasının baş həkimi işləmişdir. Həkim nəvəsi Rəşad Lənkəran diaqnostik mərkəzdə uroloq vəzifəsində işləyib. Rəvvaq kişinin nəvəsi Şakir Bakı Stomatoloji Mərkəzinin stomatoloqudur. Nəvəsi Nazim Ankara şəhərində kosmetoloji cərrahiyyə üzrə uzma olmaq üçün təhsilini davam etdirir. Nəvəsi Zülfiyyə Buzovna mərkəzi xəstəxananın tibb bacısı vəzifəsində çalışır.

Nəticəsi Ağabacı tibb elmi üzrə fəlsəfə doktorudur. Həkimləri Təkmilləşdirmə İnstitutun böyük elmi işçisidir. Nəvəsi Təranə isə 2 saylı Moskva xəstəxanasının ginekoloqudur. Bütün bunların hamısı Rəvvaq kişinin zəhmətinin bəhrəsi hesab etmək olar.

Rəvvaq respublikanın məşhur tibb işçiləri və alimləri ilə dostluq edirdi. O, Mir Məmməd Cavadzadə, Ağaxan Talişinski, Bala Nəzərov, Abbasəli Nəzərov və digər həkimlərlə dostluq edirdi.

Mirzə Məmmədov, Məmmədhüseyn Əliyev, Rəşid Nurullayev, Miri Qənbərov, Ağa Quliyev və məşhur filosof Heydər Hüseynovla dost münasibəti vardı. Mir Cəfər Bağırovun təqibinə dözməyən Heydər Hüseynov özünə qəsd etmiş, onun dəfnində Rəvvaq da iştirak etmişdir.

Rəvvaqı 1937-ci ildə Mərkəzi Komitənin qərarı ilə Moskvadakı Qırmızılar Universitetinə göndərmək istəmişlər, ancaq imzasız məktublarda bacısı Şəhrəbanu xanımın sürgündə olması göstərildiyinə görə Rəvvaqın Moskvaya Qırmızılar Universitetinin göndərmək işi pozulur. 1937-ci ildə Şəhrəbanu xanımın Qazaxıstanın Çu vilayətinə sürgünə göndərilən gün Rəvvaq ağladığı üçün o, nəzarətə alınır.

"SSRİ səhiyyə əlaçısı", tanınmış cərrah oğlu Zeynalabdin Ramazanov deyir:

- Atam müharibə illərində arxa cəbhədə böyük fədakarlıq göstərdiyinə görə "Əmək igidliyinə görə" medalı ilə təltif olunmuşdur. Bacısı Şəhrəbanu xanımın günahsız olaraq sürgünə göndərilməsi onu hər gün narahat edirdi. Şəhrəbanu xanımın sürgündən azad edilməsi ilə bağlı SSRİ Ali Sovetinin sədri M.İ.Kalininə məktublar yazır. Nəhayət, atamın cəhdləri nəticə verir, Şəhrəbanu 1949-cu ildə sürgündən qayıdır.

Rəvvaq, eyni zamanda xeyriyyəçi olmuşdur. Onun köməyi ilə çoxları ali təhsil alır, vəzifə sahibi olur. Miri Qənbərov və Məmmədhüseyn Əliyev Rəvvaqın onlara göstərdiyi diqqət və qayğıdan bəhrələnmiş, onu unutmamışlar.

Rəvvaq Ramazan oğlu 1967-ci ildə dünyasını dəyişdi, lakin o xatirələrdə qaldı. Onun xalqa göstərdiyi xidmətini unutmaq o.lmaz Rəvvaq Ramazan oğlunun adına rayonda heç olmasa bir həkim və ya feldşer məntəqəsinin verilməsi ədalət naminə düzgün olardı.

*İdris Şükürlü*

# Xalqın vəkili olmaq..

## (ESSE)

**Ona Vəkil adı qoyulanda ulu Tanrı xalqın vəkili olacağını heç kəs bilmirdi**

Vəkil Əli oğlu Ağababayev dünyanın ən güclülərinin toqquşub milyonlarla günahsız adamın qanını tökən, qətlinə fərman verən cahangirlərin, məsum müharibənin ikinci ilində dünyaya gəlmişdi. Yeniyetmlik illərindən onu çoxlu sual düşündürürdü. O sualların bir qisminə cavab tapsa da, çoxu açıq qaldı

Bu dünya – yer, göy, maddi və mənəvi aləm – bizi əhatə edən nə varsa – yerdənkənar qalaktikalar Allahın iradəsi ilə yaranıb, insanların müvəqqəti istifadəsinə verilib, insanları isə öz imtahan sınağına buraxıb. Mala, dövlətə, mənsəbə həris olan insan bunun fərqinə varmır

Xalqın vəkili olmaq missiyasını hər kəsə nəsib olmur. Vəkil Əli oğlu bu könüllü, təmənnasız vəzifəni yerinə yetirməyi bacardı.

1960-cı il    Müharibədən çıxmış ölkə dirçəlirdi. Bakının tikinti meydançalarında işləyən, komsomolda hörmət və nüfuz qazanan Vəkil barədə respublikanın rəsmi qəzetləri oçerklər çap etdi. "İkinci sevinc" adlı kitab, "Vəkil bizim dostumuzdur" sənədli filmi ona həsr olunmuşdu. Lakin neçə-neçə insanın əlindən tutmaq, köməksizlərə dayaq olmaq illər boyu davam edəcəkdi. Qəzetə-jurnala bu barədə yazmağı o, özü yasaq etmişdi.

O, vəkillik missiyasını yerinə yetirmək üçün müəllim işləmək istəyini gerçəkləşdirdi. Şingədulan kəndinin məşhur orta məktəbinə təyinat aldı. Çox keçmədi ki, "Bolluq uğrunda" (indiki "Lerik") qəzetində ədəbi işçi kimi fəaliyyətə başladı. Qəzetdə çoxlu bədii, sənədli yazısı çap olundu. Onun qələmə aldığı "Saçların şəlaləsi" hekayəsi istedadlı yazıçı olduğunu göstərir. O, əgər yazıçılıq etsəydi, yəqin ki, daha çox tanınmışdı, şöhrət tapmışdı



Vəkil müəllim partiya işində çalışır, xalq nəzarəti, rabitə, nəqliyyat işinə rəhbərlik edir, raykomun büro üzvü, rayon Sovetinin deputatı seçilir, xalqdan ayrı düşmür.

Rayon Ağsaqqallar Şurasının sədri seçilir, xeyriyyəçilik fəaliyyəti ilə cənub zonasında tanınır. Azərbaycanın Milli Qəhrəmanı Rövşən Abdullayevin adına ən yaxşı oxuyan şagird üçün iki mükafat təsis edir. Tələbələrə, müasir memarlıq abidələrinin tikintisinə, əlillərə və şəhid ailələrinə, Qarabağ cəbhəsinə maddi köməyini əsirgəmir. Dəfələrlə cəbhədəki əsgərlərə baş çəkib, onları qələbəyə ruhlandırıb, həmişə yurd, Vətən sevgisi, ziyalı mövqeyi ilə fərqlənib, sədaqətli dost olub.

Vəkil Ağababayev mal-mülk hərisi olmayıb, yalnız yaxşı dostlar qazanıb. Sağlığında deyərdi: "Mən çox şadam ki, həyatda qazancım yaxşı dostlar olub, var-dövlət gəldi-gedərdi "

*İdris Şükürlü*

# DÜNYANIN ƏN QƏDİM SİVİLİZASİYASI

**Beynəlxalq bioloqlar qrupu sübut edib ki, avstraliyalı aboriglər Yer kürəsində fasiləsiz olaraq bir yerdə yaşayan ən qədim sivilizasiyadır. Alimlər Avstraliyanın 83 aborigen və Yeni Qvineyanın 25 papuasının gen nümunələrini tədqiq edərək bu nəticəyə gəliblər.**

Bu cür seçim təsadüfən edilib: tədqiqatçılar bildiriblər ki, yerli avstraliyalılar və papuaslar digər qədim adamlarla, ehtimal ki, Denis dövrünün adamı ilə çarpazlaşıblar. Bu növ 40-50 min il əvvəl yoxa çıxıb, o, Altaydakı Denis mağarasından tapılmış sümüklərə görə məlumdur. Aborigenlərdə onların genlərinin 4 faizi aşkar edilib.

Alimlərin fikrincə, Denis adamı və müasir avstraliyalı aborigenlərin əcdadlarının görüşü isə nə vaxtsa Avstraliya, Yeni Qvineya və Tasmaniyanı birləşdirən supermaterik Sahulunun yaxınlığında olub. Alimlər güman edirlər ki, bu yerdəyişmə 50-72 min il əvvəl baş verə bilərdi.

Beləliklə, yeni tədqiqat vahid miqrasiya nəzəriyyəsini təsdiq edib. Nəticələr həmçinin əvvəllər keçirilmiş genetik və arxeoloji tədqiqatlarla da uzlaşır.

# QOCA KİMİ UŞAQ DOĞULUB

Banqladeşdə nadir xəstəlik - progeriya ilə uşaq dünyaya gəlib. Uşaq qoca kimi görünür.

Progeriya çox nadir xəstəlikdir. Bu xəstəlikdən dörd milyonda bir adam əziyyət çəkir. Banqladeşdə doğulmuş uşaq 80 yaşlı qocaya bənzəyir: onun sallaq göz qapaqları, solğun dərisi və sıx saçları vardır.

Buna baxmayaraq, uşağın görüntüsü valideynlərini narahat etmir. Onlar xoşbəxtdirlər və onu möcüzə-uşaq adlandırırlar. "Biz Tanrıya yalnız minnətdar ola bilərik. Onu olduğu kimi qəbul edirik. Çox xoşbəxtik, indi bizim evdə oğlan uşağı var" - ata bildirib.

Qeyri-adi uşaq ailədə ikinci övladdır, onun bacısı var. Valideynləri ümid edirlər ki, o, sağlam böyüyəcək. Yerli xəstəxananın həkimləri bildiriblər ki, uşaq hələ özünü yaxşı hiss edir. Doğrudur, progeriyalı uşaqlar hətta 13 yaşa kimi nadir hallarda yaşayırlar.

# İTMİŞDİR

"Lerik Kənd Təsərrüfatı İstehsal Müəssisəsi" MMC-nin adına verilmiş dairəvi möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Mübariz Ağayev, İdris Şükürlü, Ələvsət Qurbanov, Zəfər Əliyev, Şahverdi Hüseynov, Muradəli Hüseynov, Habil Əliyev Nizami Suvarova, oğlu

**ELVİNİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Dolların 3 günlük məzənnəsi




**Oktyabrın 18-nə manatın məzənnəsi açıqlanıb.**

Azərbaycan Mərkəzi Bankından verilən məlumata görə, 18.10.2016-cı il tarixinə USD/AZN rəsmi məzənnəsi 1,5969 səviyyəsində müəyyən olunub.

Qeyd edək ki, oktyabrın 14-də USD/AZN rəsmi məzənnəsi 1,5970 manat təşkil edib.



Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası

Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36.

Tel.: (070) 520-73-91
(0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.

Sifariş: 315    Tiraj: 650

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935

Qəzet "Mətbuat" firmasının mətbəəsində çap edilmişdir.